Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Sevimli Oğlu Kölə Oldu

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: M. Kerr; Sarah S; Alastair P.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

İshaq çox xoşbəxt idi.  Onun oğlu Yaqub evdə idi.  Hətta Esav da bir dəfə öldürməyə and içdiyi qardaşını qarşıladı.



Lakin Yaqubun oğulları xoşbəxt deyildilər. Çünki onların kiçik qardaşları Yusif atasının ən sevimlisi idi.



Yusif yuxusunu qardaşlarına danışanda onlar da qəzəbləndilər.  Yusif dedi: "Mənim dərzim qalxıb dik durdu, qardaşlarımın dərziləri isə mənim dərzimi əhatəyə alıb ona səcdə etdilər".



Bu yuxu o demək idi ki, Yusif qardaşlarından daha mühüm şəxs olacaqdı.



Yusifin ikinci yuxusunda günəş, ay və ulduzlar ona səcdə etdilər. Hətta onun atası Yaqub da Yusifin özünü valideynlərindən və qardaşlarından üstün tutduğuna görə qəzəbləndi.



Bir gün Yaqubotardığı yerə göndərdi. Qardaşları onun Yusifi qardaşlarının sürülərini gəldiyini gördülər. “Gəlin bu yuxu görəni öldürək”, onlar donquldadadılar. Yusif qarşısındakı təhlükədən xəbərsiz idi.



Böyük qardaşı Ruven razı olmadı. O dedi: “Biz qan tökməməliyik”. “Burada quyu var. Qoy o orada ölsün!” Ruven axşam düşəndə Yusifi xilas etməyi planlaşdırırdı.



Yusif gəlib çatanda qardaşları onu tutdular və atası Yaqubun xüsusi ilə öz sevimli oğluna tikdirdiyi alabəzək paltarını çıxartdılar.



Sonra onu quyuya atdılar.



Ruven orada olmayanda uzaq Misirə gedən dəvə karvanı yaxınlaşdı. “Gəlin Yusifi sataq”, qardaşı Yəhuda ucadan dedi. Razılaşdılar. Onlar Yusifi iyirmi gümüşə satdılar.





Yusif köməksiz halda, göz yaşları və qorxu içində yırğalana-yırğalana yeriyən dəvələrin onu necə öz ailəsindən və ölkəsindən uzaqlaşdırdığına baxdı.





“Bu, Yusifin paltarıdır? Bu, qanlıdır.
Biz bunu çöllükdən tapdıq”.
Qəddar qardaşlar Yaqubu
sevimli oğlunun vəhşi
heyvan tərəfindən
öldürüldüyünə
inandırdılar. Yaqub
paltarını cırdı və yas
tutdu. Heç kim ona
təsəlli verə bilmədi.

Yəqin ki, Yusif Misirdə tənha idi və qorxurdu. Bəlkə o, ev üçün darıxırdı.



Lakin o, buradan qaça bilməzdi. O, çox mühüm bir Misirlinin, Potifarın evində kölə idi. Potifar Yusifin həmişə səylə işlədiyini və etibarlı biri ola biləcəyini gördü.

Bir gün Potifar Yusifə dedi: “Sənin etdiyin bütün işlər yaxşı alınır.  İstəyirəm ki, sən mənim baş xidmətçim, bütün işlərin başçısı və bütün xidmətçilərimin ağası olasan”.



Allah Yusifə görə Potifara yaxşı məhsul və çoxlu var-dövlət verdi. Artıq mühüm şəxs olan Yusif hələ də sadiqliklə Allaha etibar edir və Ona xidmət edirdi.



Potifarın arvadı əxlaqsız qadın idi.  O, Yusifdən onun ərinin yerini tutmasını istədi.  Yusif imtina etdi.  O, Potifara haqsızlıq edərək, Allaha ...



... qarşı günah işlədə bilməzdi.  Qadın onu məcbur etməyə çalışanda, o qaçdı.  Lakin qadın ondan yapışdı və Yusifin üst geyimi onun əlində qaldı.



Potifarın arvadı gileyləndi: “Sənin nökərin mənə təcavüz etdi.  Budur, onun geyimi!”

Potifar çox qəzəbləndi.  Bəlkə o, arvadının yalan danışdığını bilirdi.  Lakin, o nə isə etməli idi. O nə edəcəkdi?



Potifar Yusifi zindana atdı.  Günahsız olmasına baxmayaraq, Yusif hirsli və qəzəbli deyildi.





Bəlkə o, harada olursa olsun, çətinliklərdən öyrənirdi, əgər o, Allahı izzətləndirirsə, Allah da onu izzətləndirəcək – hətta zindanda olsa belə.

# Sevimli Oğlu Kölə Oldu

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yaradılış 37, Yaradılış 39

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**